# Şahbuzun təhsil ocaqları yeni dərs ilinə yüksək hazırlıqla başlayıblar

Doğma Azərbaycanımız öz müstəqilliyini qazandıqdan sonra ümummilli liderimiz Heydər Əliyevin dərin zəkası, müdrikliyi sayəsində tez bir zamanda ölkəmizdə ictimai-siyasi sabitlik əldə olundu, bütün bölgələr dinamik inkişafa qədəm qoydu. Öz fəaliyyətini dahi rəhbərin irsinə layiq şəkildə davam etdirən Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində isə ölkəmiz günü-gündən inkişaf edərək hazırda dünyanın qabaqcıl ölkələri ilə müqayisə olunacaq səviyyəyə çatmışdır.

İstər ölkəmizin paytaxtı Bakı şəhərində, istərsə də bölgələrimizdə digər sahələrdə olduğu kimi, təhsil sahəsinə də həmişə yüksək diqqət göstərilir. Uğurlu təhsil islahatlarının aparılması, yeni, Avropa təhsilinə inteqrasiya olunmuş təhsil sisteminin yaradılması, ali və orta təhsil ocaqlarının yenilənməsi bunun bariz nümunəsidir. Bütün sahələrdə daha çox nailiyyətlərə imza atan Naxçıvan Muxtar Respublikasında da təhsil sahəsinə yüksək səviyyədə diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqəti və qayğısı sayəsində muxtar respublikanın bütün rayonlarında, kəndlərində istər təhsil sahəsində, istərsə də digər sahələrdə yüksək inkişaf tempi hər addımda duyulmaqdadır.

Muxtar respublikanın dağlıq bölgəsi olan Şahbuz rayonunda son illərdəki dəyişikliklər isə insanın könlünü oxşayır. Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramlarının vaxtlı-vaxtında yerinə yetirilməsi sayəsində yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri digər tikililərlə birgə Şahbuz şəhərinin və rayonun kəndlərinin görünüşünü dəyişərək gözəlliklər diyarına çevirmişdir.

Şahbuz şəhərinə qədəm qoyan hər bir insanı hər addımda duyulan gözəllik heyrətə gətirir. Xüsusən də şəhərin mərkəzində Heydər Əliyev prospekti boyunca piyada gəzdikcə şəhərin mənzərəsi insana zövq verir.

Yolun kənarlarında əkilmiş gül kollarının arasından keçən piyada yolu ilə irəliləyərək Şahbuz Şahmat Məktəbinə baş çəkirik. Önündə dayanıb binanı seyr edərkən 30 il öncə tələbə yoldaşı olduğum Əli Gülmalıyevlə rastlaşırıq. Şahbuzda təhsil və təhsil ocaqları haqqında qısa söhbətdən sonra Şahmat məktəbinin direktoru olduğunu deyir.

Qeyd edir ki, Şahbuzun bütün kəndlərində yeni məktəblər tikilib və mövcud məktəblər yüksək səviyyədə təmir olunub. Məktəblərin yüksək nəticə əldə edən məzunlarının sayı ildən-ilə artmaqdadır. Bu il rayonun ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan 21 məzunu Ali Məclis tərəfindən mükafatlandırılmışdır.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbə baş çəkirik. Müasir avadanlıqlarla, laboratoriyalarla, istilik sistemi ilə təmin olunmuş məktəbdə şagirdlərin təhsili üçün gözəl şərait yaradılmışdır. Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyevlə görüşürük.

Rayon rəhbəri ilə söhbətə şəhərin gözəlliyindən, təhsil sahəsinə göstərilən diqqət və qayğıdan başlayırıq. O, öz təəssüratlarını bizimlə bölüşür: "Bu gözəllik, bu abadlıq, bu sevinc hissləri hamısı müstəqilliyimizin, istiqlalımızın bəhrəsidir. Biz bundan sonra da ciddi səylə çalışmalıyıq ki, yurdumuz, Vətənimiz daha da gözəlləşsin, bugünkü körpələrimiz gələcəkdə böyük nailiyyətlərə imza ataraq Azərbaycanımızı hər sahədə dünyada tanıtsınlar. Muxtar respublikamızda təhsilin inkişafına, məktəblərin infrastrukturunun yeniləşməsinə, təhsilin mövcud problemlərinin həllinə yetərincə diqqət, qayğı göstərilir. Bu, bizim Vətən qarşısında olan borcumuzdur və biz bu borcu yerinə yetirməkdən şərəf duyuruq".



*Kükü kənd orta məktəbi*

Kənd məktəblərinin bir neçəsini görmək arzusu ilə yola çıxırıq. İlk görüşünə getdiyimiz məktəb Şahbuz rayonunun dilbər guşəsi Nursu kəndinin məktəbi - xalq şairimiz ölməz Məmməd Arazın ilk təhsilini aldığı məktəb olur. 1982-ci ildə inşa olunmuş və son illərdə əsaslı təmir olunmuş məktəb öz görünüşü ilə göz oxşayır.

Nursu məktəbinin direktoru Xanəli Əmişovla, müəllimlərlə söhbət edirik. Onlar Nursu məktəbinin uğurlarından söz açaraq tarixçi alim İbrahim Bağırovun, ədəbiyyatşünas alim Firudin Hüseynovun, akademik Adil Bağırovun və onlarla tanınmış şəxsin bu məktəbin yetirməsi olduğunu deyirlər.

Rayonun Kükü, Kolanı, Qışlaq, Ağbulaq, Sələsüz, Badamlı, Daylaqlı, Biçənək, Külüs, Keçili və s. kəndlərinin məktəbləri də yüksək səviyyədə təmir olunub, müasir avadanlıqlarla təchiz edilib. Hər bir kənddə öz sənətini ürəkdən sevən, xalqımızın xoş gələcəyi üçün yorulmadan fəaliyyət göstərən müəllimlər çalışır. Həmsöhbətimiz olan müəllimlərin hamısı muxtar respublikada təhsilə xüsusi qayğı göstərildiyini vurğuladılar.

Onu da qeyd etmək lazımdır ki, uzun illərdən bəri hər il ali məktəblərə qəbul imtahanlarında 500-dən yuxarı bal toplayıb tələbə adını qazanmış gənclərimizlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun görüşü keçirilir və tələbələrin hər biri mükafatlandırılır. Bu il də yüksək bal toplamış 338 tələbə mükafatlandırılmışdır. Ali Məclisin Sədri gənclərə uğur diləyərək onlara Vətən üçün oxumağı, çalışmağı, daim ümummilli liderimiz Heydər Əliyevin işıqlı ideyalarına xidmət göstərərək yurdumuza töhfələr verməyi tövsiyə etmişdir. Tələbələrə eyni zamanda "Naxçıvan: Şərqin əfsanəsi" kitabı təqdim olunmuşdur. Bütün bunlar gənclərimizə qol-qanad verərək, onları sabaha doğru daha inamla addımlamağa sövq edir.

**Əbülfət ZEYNALOĞLU,**
*AYB-nin üzvü, müəllim, müharibə veteranı*